UOT 373.2.

***Pərvanə İldırım qızı İmanova***
*Bakı Humanitar Kollecinin müəllimi*

# PEDAQOJİ ÜNSİYYƏT PROSESİNDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASININ İMKANLARI VƏ YOLLARI

***Парвана Илдырым гызы Иманова***
*преподаватель Бакинского Гуманитарного Колледжа*

# ВОЗМОЖНОСТИ И СПОСОБЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ ДОШКОЛЬНИКОВ В ПРОЦЕССЕ ПЕДАГОГИЧЕСКОГО ОБЩЕНИЯ

***Parvana Ildirim Imanova***
*teacher of Baku Humanitarian College*

# DEFLECTION AND SPILLAGE IN THE VISCOSITY OF THE PROCESSOR

**Xülasə.** Tərbiyəçi-uşaq münasibətində diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, bu prosesdə onların bir-birini öyrənməsi, tanıması onların ikitərəfli inamına zəmin yaradır. Məlumdur ki, tərbiyəçiyə inam onu uşağın idealına çevirir, belə halda uşaqlar bütün xeyirxahlığın tərbiyəçidə birləşdiyini görməyə alışırlar. Məhz ona görə də tərbiyəçilər yadda saxlamalıdırlar ki, uşaqlar üçün mümkün olan bütün ideal onların simasında həyata keçir.

***Açar sözlər:*** *məktəbəqədər dövr, pedaqoji ustalıq, şəxsiyyət, prinsiplər, keyfiyyətin yüksəldilməsi, innovasiya, kompetensiya, vasitələr.*

**Резюме:** Что примечательно в отношениях между воспитателями и детьми, так это то, что их взаимное изучение в данном процессе строятся на их взаимном доверии. Хорошо известно, что доверие к воспитателю делает его идеалом ребенка. Вот почему педагоги должны помнить, что идеал для детей реализуется в их лице.

***Ключевые слова:*** *дошкольный период, педагогическое мастерство, личность, принципы, повышение качества, инновации, компетенция, средства.*

**Summary:** In order to avoid confrontation between parents and children, do not give too much attention to the process of doing so. Horoscopes do not have to do anything, so the ideal rebrand, let's go to the next, let alone integrate in the pecking order. The trainer is a great teacher, and the ideal for children is a great league.

**Key words:** *preschool period, the personality, the developing training, principles, pedagogical skill, improvement of quality, innovation, competence, means.*

Məktəbəqədər dövr şəxsiyyətin yaranma və təşəkkül tapma dövrü olaraq xüsusi əhəmiyyətə malikdir. Məktəbəqədər dövr uşağın fəaliyyətin subyekti kimi formalaşmasının ilkin mərhələsi kimi özünü göstərir. Bu uşağın üç yaşında özünə “Mən” deməsilə başlayır. Şəxsiyyətin formalaşmasının ilk əlamətləri uşağın tələbat – motivasiyası sahəsində əmələ gələn dəyişikliklərdə nəzərə çarpır. Uşağın tələbatlarının məzmunu dəyişir və davranışının istiqaməti də onlarla müəyyən olunur.

Məktəbəqədər təhsil müəssisələrinə uşaqların uyğunlaşması problemi indiki dövrdə də öz aktuallığını saxlayır. Bu onunla əlaqədardır ki, uşaq bağçası ailədən sonra ikinci yerdir ki, uşağın həyatında yeni dövr başlayır. Uşaqların ailədən ayrıldıqdan sonra məktəbəqədər müəssisəyə ilk dəfə daxil olduqda həyəcanlı olmaları müşahidə edilir. Amma uşaq tədricən o şəraitə uyğunlaşmalıdır. Uyğunlaşma isə fizioloji, psixoloji və sosial səviyyələrdə baş verir. Amma uyğunlaşma dövründə uşaqda elə hallar baş verə

bilər ki, bu çətinliklər onun ən xoşa gəlməz formalarına gətirib çıxara bilər. Bu da intizamın pozulması, oyun və tədris fəaliyyətində, yaşıdları və tərbiyəçilərlə qarşılıqlı ünsiyyətdə özünü göstərə bilər.

Buna görə də uşağı yeni mühitə alışdırmağa, uyğunlaşmasına kömək etmək lazımdır. Uşağın məktəbəqədər müəssisədə həyatını elə təşkil etmək lazımdır ki, yeni şəraitə ağrısız alışmasına yardımçı olsun, onda uşaq bağçasına müsbət münasibət formalaşdırsın, hər şeydən əvvəl yaşıdları ilə ünsiyyət vərdişlərini aşılasın.

Məlumdur ki, məktəbəqədər təhsil müəssisələrində uşaqlarla aparılan əsas fəaliyyət növləri oyun, əmək və təlimdir. Təlim başlıca olaraq intellektual zənginliyə, tərbiyə isə əxlaqi saflığa, fiziki kamilliyə xidmət edir.

Təcrübə göstərir ki, uşaqlar oyunun təşkilində fəal və yaradıcı olduqları halda, çox vaxt təlim fəaliyyətinin təşkilində hədsiz dərəcədə aciz, köməksiz olurlar. Ona görə də tərbiyəçinin ustalığı, hər şeydən əvvəl təlim-tərbiyə prosesini təşkil etmək bacarığındadır. Öz peşəsini sevən və onun sirlərinə dərindən yiyələnən tərbiyəçi ən əlverişsiz şəraitdə uşaqların lazımi tərbiyəlilik, inkişaf və bilik səviyyəsinə nail olur. Müasir şəraitdə tərbiyəçi yeni təlim metod və texnologiyalarını kamil bilməlidir. Tərbiyəçinin ustalığı öyrənmək bacarığını uşaqlara öyrətməkdə özünü göstərir. Ustalığın mühüm göstəricilərindən biri uşaqları fəallaşdırmaq, onların qabiliyyətini, müstəqilliyini inkişaf etdirmək bacarığıdır.

Tərbiyəçinin uşaqlarla nümunəvi münasibətlər haqqında danışmağındansa, həmin münasibətlərin uşaqlar tərəfindən həyatda tətbiqinə şərait yaratması daha faydalıdır. Uşaqların bağçaya uyğunlaşması, onların ətrafında öyrədici, dəstəkləyici, inkişafetdirici mühitin yaradılmasında pedaqoji ünsiyyətin rolu əvəzsizdir.

Təlim uşaqların həyatında mütəşəkkil məşğələlərin təsiri altında formalaşan xüsusi fəaliyyətdir. Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçinin sistemli və məqsədyönlü şəkildə uşağa təsiri təşkilati proses kimi məşğələ formasında həyata keçirilir. Təlim prosesində uşağa müəyyən biliklər verməklə yanaşı, ona müvafiq bacarıq və vərdişlər də aşılanır.

Tərbiyəçi təlim prosesini fəallaşdırmaq üçün müxtəlif metodlardan istifadə etməklə məşğələdə uşaqları düşünməyə məcbur etməyi bacarmalı və məqsədinə nail olmaq üçün aşağıda göstərilən tələblərə əməl etməsi məqsədəmüvafiqdir:

1. Məşğələdə təlimedici, tərbiyəedici və inkişafetdirici vəzifələrin qoyulması və həlli;

2. Məşğələdə emosional əhval-ruhiyyənin qaldırılması;

3. Uşaqların idraki fəaliyyətinin fəallaşdırılması, onlarda təşəbbüskarlığın və yaradıcılığın inkişaf etdirilməsi;

4. Təlimin məzmununun optimallaşdırılması;

5. Məşğələnin quruluşunun təkmilləşdirilməsi;

6. Uşaqlarda bilik, bacarıq və vərdişlərin formalaşdırılmasında vahidliyin gözlənilməsi;

7. Məşğələnin sürətinin uşaqların gücünə müvafiqliyi.

Müasir məşğələyə verilən didaktik tələblər aşağıdakı kimi müəyyənləşdirilərsə yüksək nəticələr əldə olunar:

1. Təlimedici vəzifələrin bütövlükdə və onun tərkibindəki elementlərin dəqiq ifadə olunması, onların tərbiyəedici və inkişafetdirici vəzifələrlə əlaqəsi.

2. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramının tələblərinə və məşğələnin məqsədinə uyğun olaraq, uşaqların ümumi inkişafının və məktəbə hazırlığının səviyyəsi nəzərə alınmaqla məşğələnin daha optimal məzmununun müəyyənləşdirilməsi.

3. Uşaqların bütövlükdə məşğələdə, həm də onun ayrı-ayrı mərhələlərində bilikləri mənimsəmələrinin, bacarıq və vərdişlərin formalaşdırılması səviyyəsinin proqnozlaşdırılması.

4. Təlimin daha səmərəli metod, priyom və vasitələrinin, həvəsləndirmə və nəzarətin, məşğələnin hər mərhələsində onların optimal təsirinin müəyyənləşdirilərək seçilməsi.

5. İdraki fəallığı təmin edən məşğələdə müxtəlif kollektiv və fərdi iş formalarının uyğunluğu və təlim prosesində maksimal müstəqilliyin təmin olunması.

6. Müvəffəqiyyətli təlim şəraitinin təşkili.

Məşğələyə verilən psixoloji tələblər bunlardır:

1. Məşğələnin psixoloji məqsədi:

a) konkret məşğələdə uşaqların inkişafının layihələndirilməsi;

b) uşaqların inkişafını təmin edən pedaqoji-psixoloji təsirin ayrı-ayrı vasitələrinin, metodik yolların nəzərdə tutulması.

2. Məşğələnin üslubu:

a) məşğələnin təlimin inkişafetdirici prinsiplərinə uyğun məzmununun və strukturunun müəyyənləşdirilməsi:

- uşaqların yaddaş və təfəkkürlərinin qarşılıqlı əlaqəsi;
- uşaqların yaradıcı fəaliyyətlərinin həcminin müəyyənləşdirilməsi;
- müstəqil axtarış prosesində hazır biliklərin mənimsənilməsinin planlaşdırılması;
- təlim prosesində problem situasiyanın (problemin qoyulması, onu qısaca ifadə edilməsi və həlli ) həll edilməsi;

b) tərbiyəçinin özünütəşkilinin xüsusiyyətləri:

- məşğələyə hazırlıq-pedaqoji məqsədin və onun həyata keçirilməsinə daxili hazırlığın başlıca dərk edilməsi kimi;
- məşğələnin əvvəlində və gedişində işgüzar şərait;
- pedaqoji nəzakət;
- məşğələdə psixoloji iqlim (şən ab-havanın saxlanılması, səmimi ünsiyyət, işgüzar əlaqə).

Məşğələnin keçirilmə texnikasına verilən tələblərin aşağıdakı kimi olması vacib məsələlərdəndir :

1. Məşğələ emosional olmalı, təlimə maraq oyatmalı, tələbkarlıq tərbiyə etməlidir.
2. Məşğələnin sürəti və ritmi optimal, tərbiyəçinin və uşaqların fəaliyyəti həmahəng olmalı, pedaqoji etikaya əməl olunmalıdır.
3. İmkana görə uşaqların fəaliyyət növlərini dəyişmək, təlim prosesinə müxtəlif metod və priyomları tətbiq etmək lazımdır;
4. Xeyirxahlıq və yaradıcı əmək mühiti üstünlük təşkil etməlidir.
5. Tərbiyəçi hər bir uşağın fəal təlimini təmin etməlidir.

Pedaqoji ünsiyyətin məqsədi tərbiyəçi tərəfindən uşağı hərtərəfli inkişaf etdirmək, onda sadə əmək bacarıqları formalaşdırmaq, onun şəxsi keyfiyyətlərinin yaxşılaşması və bütövlükdə həyatın mənasının dərk olunmasına imkan yaratmaqdan ibarətdir. Təbii ki, deyilənlərin reallaşması üçün ən əlverişli vasitə təlim prosesidir.

Öyrənmə prosesində tərbiyəçi-uşaq münasibətinin psixoloji aspektlərini də nəzərə almaq vacibdir:

- sakit münasibətin təmin olunması;
- uşağın öz adı ilə çağırılması;
- stress yaradan vəziyyətə imkan verilməməsi;
- məşğələ zamanı tapşırıqların asandan çətinə prinsipi ilə verilməsi;
- sual verərkən cavabı düşünmək üçün uşağa vaxt verilməsi;
- hamının yanında tərifləyərək, təklikdə iradları bildirmək və s.

Uşaqları çox yükləməmək üçün tərbiyəçi təlim prosesini düzgün qurmalıdır. Təlim prosesinin düzgün qurulması dedikdə məşğələnin məqsədəmüvafiq planlaşdırılması, qarşıda duran vəzifələrin təyin edilməsi, təlim metodlarının, özünün və uşaqların fəaliyyətinin qabaqcadan müəyyənləşdirilməsi, uşaqların öyrənmə tərzinə müvafiq üsulların seçilməsi nəzərdə tutulur.

Araşdırmalar göstərir ki, tərbiyəçi məşğələ zamanı tək özü danışdığı zaman uşaqlar 5-7 dəqiqədən sonra ona qulaq asmırlar, yeni biliyi izah etmək deyil, onun öyrənilməsi üçün uşaqları maraqlandırmaq, onları cəlb etmək lazımdır. Uşaqlarda yorğunluğun aradan qaldırılması üçün onlarla gimnastika dəqiqələri keçirilir. Barmaqlar üçün keçirilən gimnastik hərəkətlər əlin kiçik əzələlərini məşq etdirir, nitqi stimullaşdırır, iş qabiliyyətini artırır.

Tərbiyəçi ilə uşaqların qarşılıqlı münasibətində diferensial yanaşma təlimin nəticələrinə təsir göstərən mühüm amildir. Özünə inamsız, utancaq, ünsiyyətdən qaçan, verilən tapşırıqları yerinə yetirə bilməyən uşaqlar məşğələdə tərbiyəçinin onlara göstərdiyi münasibətə xüsusilə həssas olurlar. Belə uşaqlar tərbiyəçinin onların fikirlərinə diqqət yetirdiyini, səylərini lazımınca qiymətləndirdiyini, müvəffəqiyyətlərinə sevindiyini və uğursuzluqlarına kədərləndiyini görəndə özlərini daha inamlı hiss edirlər. Tərbiyəçi belə münasibətdə onları öz səy və çalışqanlıqlarını artırmağa təhrik edir. Yaxşı münasibət müqabilində hətta süst, ətalətli, təlim laqeyd uşaqlarda belə tərbiyəçiyə qarşı minnətdarlıq hissləri oyanır, onun gözündən düşmək qorxusu yaranır, tərbiyəçinin etimadını doğrultmaq səyləri, verilən tapşırıqlarla bağlı hər şeyə maraqları artır.

Uşaqların qrupda bərabər çalışması, işləməsi, əməkdaşlıq edə bilməsi onların gələcək həyatlarında cəmiyyətin digər üzvləri ilə uğurlu ictimai münasibətlər qurması, öz həyatlarını təşkil edə bilməsinin təməlini qoyur.

Məktəbəqədər təlim prosesi özündə bilik və bacarıqların möhkəmləndirilməsi kimi didaktik vəzifə daşıyır. Təcrübə göstərir ki, bilik və bacarıqlar asan, sərbəst şəkildə möhkəmləndirilir, bəzən isə tərbiyəçi tərəfindən xüsusi işin aparılmasını tələb edir.

Məşğələnin təşkili prosesində təlimin tərbiyələndirici rolu da diqqət mərkəzində olmalıdır. Bilik və bacarıqların qazanılmasına yönəlmiş hər bir məşğələlərin təşkili dərindən, hərtərəfli düşünülmüş olmalıdır ki, uşaqlar artıq məktəbəqədər yaşda onu həvəslə, maraqla yerinə yetirsinlər.

Tərbiyəçi-uşaq münasibətində diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, bu prosesdə onların bir-birini öyrənməsi, tanıması onların ikitərəfli inamına zəmin yaradır. Məlumdur ki, tərbiyəçiyə inam onu uşağın idealına çevirir, belə halda uşaqlar bütün xeyirxahlığın tərbiyəçidə birləşdiyini görməyə alışırlar. Məhz ona görə də tərbiyəçilər yadda saxlamalıdırlar ki, uşaqlar üçün mümkün olan bütün ideal onların simasında həyata keçir.

**Problemin aktuallığı.** Böyüməkdə olan uşağın şəxsiyyətinin formalaşmasında bir çox digər psixoloji törəmələr kimi ünsiyyət tələbatı da aparıcı rola malikdir. Yaxşı ünsiyyət mühiti və tərəfdaş insanın fəallığını artırır, əhvalında gümrahlıq yaradır, hisslərini və zövqünü cilalayır.

**Problemin yeniliyi.** Təlim-tərbiyə prosesində formal qarşılıqlı münasibətlərdən əməkdaşlıq münasibətlərinə keçilməsini təmin edən tərbiyəçi-uşaq ünsiyyətinin formalaşması prosesi elmi cəhətdən əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti.** Tərbiyəçi-uşaq ünsiyyətinin düzgün, müasir dövrün tələblərinə uyğun qurulması üçün məqalədən pedaqoji kollektivin idarə olunmasında, qrup kollektivinin təşkilində istifadə edilə bilər.

**Ədəbiyyat:**

1. İbrahimov X.C. Ünsiyyət mədəniyyəti və şagird kollektivində onun formalaşdırılması yolları: Ped. elm. nam. …avtoref. Bakı, 1992.
2. Həmzəyev M. Pedaqoji psixologiya. Bakı: Maarif, 1991.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları: Psixol. elm. dok. …dis. Bakı, 2004.
4. Кан-Калик В.А. Учителю о педагогическом общении. М.: Просвещение, 1987.
5. Ломов Б.Ф. Методологические и теоретические проблемы психологии. М.: Наука, 1984.
6. Грехнев В.С. Культура педагогического общения. М.: Просвещение, 1990.

**E-mail:** imanova.pervane@bk.ru

**Rəyçilər:***prof.***M.İ. İlyasov,**
*ped.ü.fəls.dok.,dos.* **Ş. Baxışova**

**Redaksiyaya daxil olub:** 11.07.2019.